*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.107-111*

https://doi.org/10.62837/2025.4.107

**AYGÜN VAHID QIZI RÜSTƏMZADƏ**
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dillər Universiteti
Elektron poçt ünvanı:
r.aygun.h289@gmail.com

# İNGİLİS DİLİNDƏ SÖZ DÜZƏLTMƏ ÜSULLARI

***Xülasə:***

Məqalədə müasir ingilis dilində söz düzəltmə üsulları tədqiq edilir. Söz düzəltmə üsullarının ingilis dilində yaranması tədqiq edildiyindən, məqalədə əvvəlcə ingilis dili haqqında məlumat verilir. Müasir dünyada ingilis dilinin yeri, ingilis dilinin dünya dilləri arasında mövqeyi kimi məsələlər haqqında məlumat verilir. Məlum olur ki, ingilis dili hazırda dünyada ən çox işlədilən xarici dildir və dünya dillərinə rəhbərlik edir. İngilis dili artıq çox ölkədə ikinci ana dili kimi qəbul edilir.

Məqalədə sonra ingilis dilində söz düzəltmə üsulları müzakirə edilir. Məqalədə söz düzəldilməsində ön və son şəkilçlər haqqında yazılır. İngilis dilində morfoloji quruluşlarına görə sözlərin təsnifatı verilir və onların sadə, düzəltmə və mürəkkəb olmaqla üç hissəyə bölünməsi haqqında yazılır. Yeni sözlərin yaranmasında xüsusilə düzəltmə və mürəkkəb sözlərə diqqət cəlb olunur.

**Açar sözlər:** ***ingilis dili, söz, təsnifat, mürəkkəb, sadə, vasitə***

İngilis dilində müxtəlif nitq hissələrinə aid söz düzəltmədə üsullarında hansı ön və ya son şəkilçilərin işlədilməsi haqqında məlumat verilir.

Məqalədə xüsusilə söz düzəltmə üsullarında məhsuldar olan şəkilçilər haqqında yazılır.

Məqalə hazırda da aktual hesab edilir. Dilin lüğət tərkibi dəyişir, daim inkişaf edir və bu inkişaf prosesində dilə yeni sözlər daxil olur. Sözlərin yaranmasından asılı olaraq söz düzəltmədə üsullarında da zamanla yenilənmə olur ki, bu da məqalənin hazırda aktual olmasının göstəricisidir.

İngilis dili çox məhsuldar dildir. Bu gün dünyada ən geniş yayılmış dillərdən biri hesab edilir. D.Kristal yazır ki: *"İngilis dili dünyada ən geniş yayılmış dil olmasına baxmayaraq, danışanlarının sayına görə Çin (mandarin) dilindən sonra ikinci yerdə gəlir. Hazırda dünyada ingilis dilində 427 milyondan çox insan danışır"* [1, s.289].

Bütün ölkələrdə ingilis dilinin rolu birmənalı şəkildə qəbul edildiyindən o, qlobal dil hesab edilir [1, s.2].

İngilis dilinin qlobal dil kimi digər ölkələr tərəfindən qəbul edilməsinin iki yolu var: rəsmi dil kimi təsbit edilir və təhsildə birinci rəsmi dil sayılır. Bəzi hallarda

bu konstitusiyada ayrıca maddə ilə ikinci dil kimi təsbit olunur. Dünyanın 70 ölkəsində ingilis dili xüsusi statusu olan dil kimi qəbul edilmişdir. Bunların arasında Qana, Nigeriya, Sinqapur, Hindistan və s. kimi ölkələrin də adları vardır. Bu baxımdan ingilis dili digər dillərdən – fransız, alman, ispan və ərəb dillərindən çox irəlidədir.

Hazırda ingilis dili dünyanın 100 ölkəsində xarici dil kimi tədris olunur. İngilis dili Çində, Rusiyada, İspaniyada, Misirdə və Braziliyada, elə Azərbaycanın özündə də əsas xarici dil kimi tədris olunur.

Dil tarixinin bütün mərhələlərində yeni söz əmələ gələ bilər. İngilis dilində bir sıra yeni sözlərin yaranması xüsusi şəxslərin adı ilə bağlıdır. C.Çoser ingilis dilinə çox miqdarda söz gətirmiş və həmçinin yüzlərlə yeni söz yaratmışdır. U.Şekspir də ingilis dilində yeni sözləri yaratması ilə tanınır [2, s. 56].

Bır sıra mürəkkəb sözlərin yaranması qədim dövrlərə təsadüf edir. Qədimdə bir sıra mürəkkəb sözlər indi işlədildiyi mənada deyil, bir qədər fərqli mənalar ifadə edirdi. Məsələn, *boat* "qayıq" və *house* "ev" sözlərindən *house-boat* kimi mürəkkəb söz yaranmışdır və bu söz "yaşayış evi kimi istifadə olunan qayıq" və *boat-house* "su kənarında qayıqları saxlamaq üçün olan ev" kimi tərcümə edilirdi. Bu qəbildən olan digər mürəkkəb sözləri nəzərdən keçirdək: *sunrise* "günəşin doğması" və *sunset* "günəşin batması" sözlərində işlədilmiş *sun* "günəş" sözü hərəkətin subyekti, *sun-worship* "günəşə pərəstiş" sözündə hərəkətin *obyekti, sunspot* "gün ləkəsi" sözündə hərəkətin *yeri, sundial* "günəş saatı" sözündə *əlaqələndirici vasitə, sunbeam* "günəş şüası" və *sunlight* "günəş işığı" kimi mənalar ifadə edilir. *Schoolboy* "məktəbli oğlan", *bedroom* "yataq otağı", *wheel-wright* "avtomobil təkərlərini təmir edən usta" və s. kimi mürəkkəb sözlər danışıqda çox işlədilir [2, s. 102].

Sözlər və söz formalarının fərqləndirilməsində diqqətli olmaq lazımdır. Ənənəvi qrammatikada sözün formalarının fərqləndirilməsi "şəkilçi" vasitəsilə müəyyən olunur. XIX əsr alimlərindən hesab edilən V. von Humboldt dünyadakı dillərin üç növünü fərqləndirməyi təklif etmişdir. Onlar belə adlanır: "şəkilçili", "aqlyutinativ" və "təcrid olunan" dillər [3, s.144]. Məsələn, klassik yunan dilində şəkilçi olduqca çoxdur. Yunan dilində *-o* şəkilçisi ilə beş kateqoriyanı təqdim edə bilən sözlər yarana bilər. İngilis dilində hər üç növə aid olan sözlər mövcuddur. Məsələn, *by, near, to* kimi sözönləri sabit hesab olunduqlarından onlar "təcrid edilmiş" növə, *see/saw* kimi sözlər şəkilçili, *love/loves/loved/loving* kimi sözlər isə aqlyutinativ növə aid hesab edilir [3].

1976-cı ildən başlayaraq müasir ingilis dilində söz yaradıcılığının tədqiqinə aid işlərə rast gəlinməyə başlandı. C.C.Frays *"İngilis dilinin quruluşu"* əsərində söz yaradıcılığına geniş yer vermişdir [4, s.52]. S.Palmer "Dilimiz" kitabında qədim ingilis dilindən başlayaraq ingilis dilində söz yaradıcılığının tədqiqinə bütöv bir fəsli aid etmişdir [5].

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh.107-111*

O.D.Meşkov və P.M.Karaşukun tədqiqatlarında ingilis dilinin söz yaradıcılığı geniş şəkildə araşdırılmış və ingilis dilinin söz düzəldici vasitələri təsvir edilmişdir. Vurğulamaq lazımdır ki, müasir ingilis dilinin söz yaradıcılığının sistemini öyrənməkdə hər iki əsərin əhəmiyyəti böyükdür. 1972-ci ildə T.A.Rastorquyeva *"İngilis dilinin tarixi ilə bağlı mühazirələr toplusu"* əsərində ingilis dilində söz yaradıcılığını geniş şəkildə araşdırmışdır [6, s.11].

Söz yaradıcılığı dilçiliyin mühüm sahələrindən biri hesab edilir və aşağıdakı üsulları müəyyənləşdirilir:

1. Söz kökünə müxtəlif şəkilçilər artırmaqla söz düzəldilməsi;
2. Söz kökünə söz artırmaqla söz düzəldilməsi;
3. Sözün bir nitq hissəsindən başqa bir nitq hissəsinə keçməsi ilə yeni söz düzəldilməsi;
4. Sözə yeni məna verməklə söz düzəldilməsi.

A.Axundov yazır ki, müxtəlif dillərdə müxtəlif şəkilçilər olduğundan söz yaradıcılığı müxtəlif növlərdə müşahidə olunur [7, s.90]:

a) öz şəkilçili;
b) son şəkilçili;
c) iç şəkilçili.

Sözün eyni zamanda müxtəlif şəkilçilərin, məsələn, prefiks, infiks və postfikslərin iştirakı nəticəsində də yarana bilməsi mümkündür. İngilis dili analitik dil quruluşuna malik olmaqla flektiv dil tipinə məxsusdur və söz düzəldilməsinin bu növünə ingilis dilində çox rast gəlinir. Söz kökünə şəkilçi artırmaqla yaranan sözlər düzəltmə sözlər adlanır. Söz kökünə söz artırmaqla söz yaradılması sintaktik yolla yaranan söz yaradıcılığına aiddir. Sintaktik yolla yaranan sözlərin iki növü mövcuddur:

*a) iki sözün birləşməsi ilə yaranan söz yaradıcılığı.* İngilis dilində isim əmələ gətirən mürəkkəb isimləri nümunə verə bilərik: *plum tree* "gavalı ağacı", (isim+isim); feil əmələ gətirənlər: *browbeat* "qəhvəyi" (feil+feil);

*b) üç və daha artıq söz sözün birləşməsi ilə yaranan söz yaradıcılığı.* Məsələn, *go away* "tərk etmək, çıxıb getmək", *give up* "əl çəkmək, tərgitmək, vaz keçmək" və s.

İngilis dilində söz yaradıcılığının dörd əsas növü müəyyənləşmişdir: prefikslər, suffikslər, konversiya və mürəkkəb sözlərin yaranması.

Prefikslər sözün əvvəlinə artırılan şəkilçilər hesab edilir. İngilis dili prefikslərlə kifayət qədər zəngin hesab edilir.

Suffikslər isə sözün sonuna artırılan şəkilçilər hesab edilir. C.C.Frayz *"İngilis dilinin Quruluşu"* əsərində yazır ki, suffikslərin əsas məqsədi sözün hansı sinifə aid olmasını göstərməkdir. Məsələn, isim əmələ gətirən suffukslər, sifət əmələ gətirən siffukslər və s. [4].

Söz yaradıcılığının sözün bir nitq hissəsindən başqa növ nitq hissəsinə keçməsi söz düzəldici şəkilçiləri olmayan dillərdə geniş yayılmışdır. Söz yaradıcılığının bu üsuluna konversiya deyilir. Konversiyanı nitq hissələrinin müxtəlif cümlə üzvü vəzifəsində işlənməsi kimi sintaktik hadisə ilə məhdudlaşdırmaq olmaz. Bu konversiyanın yalnız bir növü kimi müəyyən edilə bilər. Konversiyanın aşağıdakı növləri müəyyən edilmişdir: *substantivləşmə, adyektivləşmə, pronominallaşma, verballaşma, adverbiallaşma, konyuksionallaşma.*

İngilis dilində söz düzəltmə üsulları ilə bağlı o nəticəyə gəlirik ki, ingilis dilində söz yaradıcılığı prosesi çoxsaylı metodlar və üsullar vasitəsilə həyata keçirilir. Tədqiqatın nəticələrinə əsasən, ən məhsuldar söz yaradıcılığı üsulları affiksasiya və söz birləşməsi üsullarıdır. Bu üsullar ən geniş yayılmış və dilin inkişafında əsas rol oynayan metodlardır.

## ƏDƏBİYYAT

1. Crystal, D. The English Language. / D.Crystal. – UK: Penguin Books, – 1988. – 312 p.
2. Potter, S. Dilimiz. / İngilis dilindən tərcümə etdilər: F.Y.Veysəlli, S.B.Mustafayeva. – Bakı, – 2014. – 167 s.
3. Humboldt, W.von. On Language. / Humboldt W.von. – Cambridge: Cambridge University Press, – 1999. – 344 p.
4. Fries, Ch.C. The Structure of English. / Ch.C.Fries. – New York: York Press, – 1952. – 304 p.
5. Palmer, F.H. Grammar of spoken English. / F.H.Palmer. –Cambridge: Cambridge University Press, – 1969. – 341 p.
6. Расторгуева, Т.А. History of the English language. / Т.А.Расторгуева, И.Ф.Жданова. – Москва: Высшая школа, – 1972. – 175 с.
7. Axundov, A. Ümumi dilçilik. / A.Axundov. – Bakı: Maarif, – 1988. – 272 s.
8. Nəbiyeva, N.Ə. Müasir ingilis və Azərbaycan dillərində mürəkkəb isimlər. / N.Ə.Nəbiyeva. Bakı, Mütərcim, – 2005., – 128 s.

**Rustamzade A.**

**WORD FORMATION METHODS IN ENGLISH**

**Summary**

The article deals with the methods of word formation in modern English. Since the emergence of word formation methods in English is studied, the article first provides information about the English language. Information is provided on issues such as the place of English in the modern world, the position of English among world languages. English turns out to be the most widely used foreign language in the world and leads the world languages. English has already been accepted as a second native language in many countries. The methods of word formation in

English have also been discussed in the article. Basically, prefixes and suffixes in word formation have been fully investigated in the present research. Besides, the English language is classified according to their morphological structure and their division into three parts: simple, compound, and complex. Particular attention is paid to derivative and compound words in the formation of new words.

Besides, information is provided on which prefixes or suffixes are used in word formation methods for various parts of speech in English. The article particularly focuses on suffixes that are effective in word formation methods. The article is still considered to be relevant today. The vocabulary of a language is changing, constantly developing, and in this process of development, new words enter the language. Depending on the formation of words, word formation methods also change over time, which is an indicator of the current relevance of the article.

**Key words:** *English, word, classification, compound, simple, means*

**Рустамзаде А.**

**СПОСОБЫ ОБРАЗОВАНИЯ СЛОВ В АНГЛИЙСКОМ ЯЗЫКЕ**

**Резюме**

В статье рассматриваются способы словообразования в современном английском языке. Поскольку изучается возникновение способов словообразования в английском языке, в статье сначала дается информация об английском языке. Приводится информация по таким вопросам, как место английского языка в современном мире, положение английского языка среди мировых языков. Английский язык оказывается самым широко используемым иностранным языком в мире и лидирует среди мировых языков. Английский язык уже принят в качестве второго родного языка во многих странах. В статье также обсуждаются способы словообразования в английском языке. В основном, в настоящем исследовании полностью исследованы префиксы и суффиксы в словообразовании. Кроме того, английский язык классифицируется по морфологической структуре и разделению на три части: простые, составные и сложные. Особое внимание уделяется производным и сложным словам при образовании новых слов. Кроме того, дается информация о том, какие префиксы или суффиксы используются в способах словообразования для различных частей речи в английском языке. В статье особое внимание уделяется суффиксам, которые эффективны в способах словообразования. Статья по-прежнему считается актуальной в настоящее время. Словарный состав языка меняется, постоянно развивается, и в этом процессе развития в язык входят новые слова. В зависимости от образования слов со временем меняются и способы словообразования, что является показателем актуальности статьи на сегодняшний день.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 4, 2025*
*Səh. 107-111*

**Rəyçi: filologiya elmləri doktoru, professor Fəridə Məhəmmədəli qızı Allahverdiyeva**